**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 281/4** **21 noyabr 2016-cı il**

**Firmadaxili audit standartlarının hazırlanması barədə**

Auditor təşkilatlarının normativ bazasının və iqtisadi subyektlərin maliyyə hesabatlarının auditinin təşkili işinin təkmilləşdirilməsi məqsədilə, Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) və Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 1.3-cü "Auditor xidməti ilə əlaqədar təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması" bəndinin icrası ilə əlaqədar sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun təqdim etdiyi materialları müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti", "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması", "İdarəetməyə məsul şəxslərlə əlaqə" və "Audit sübutu" firmadaxili audit standartlarının nümunəvi layihələri bəyənilsin (əlavə edilir).
2. Palata sədrinin elmi-metodik məsələlər üzrə muşaviri N.Talıbov tərəfindən görülmüş iş müsbət qiymətləndirilsin
3. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, firmadaxili audit standartlarının sərbəst auditorlara və auditor təşkilatlarına çatdırılmasını təmin etsin.
4. Firmadaxili audit standartlarının Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**